# Assoc. Prof. Rövşən Həsənov

## Личная информация

**Электронная почта:** rovshan_hasanov@unec.edu.az
**Web:** https://avesis.unec.edu.az/rovshan_hasanov

**Идентификаторы международных исследователей**
ScholarID: bcO-4aAAAAAJ
ORCID: 0000-0003-4220-1874

## Биография

Mən, Həsənov Rövşən Şahverdi oğlu 17.03.1956-cı ildə Laçın rayonunun Minkənd kəndində müəllim ailəsində anadan olmuşam.

1973-cü ildə Laçın rayonu Minkənd kənd orta məktəbini, 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin Geologiya-coğrafiya fakultəsini bitirmişəm.

01.09.1983-cü ildə təyinatla Azərbaycan Dövlət Hidrometeorologiya və Ətraf mühitin mühafizəsi (indiki Ekologiya Nazirliyi) komitəsində mühəndis vəzifəsinə işə qəbul edilmişəm. Bu komitədə 4 il ərzində (1983-1987-ci illər) mühəndis, baş mühəndis, şöbə müdirinin müavini vəzifələrində işləmişəm. 1987-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasinin Coğrafiya İnstututunun İqlimşünaslıq şöbəsində əyani aspiranturaya daxil olmuşam.

1995-ci ildə "Azərbaycan və Orta Asiyanın cənub arid subtropiklərinin aqroiqlim şəraiti və ehtiyatları" adlı disertasiya işini müvəffəqiyyətlə müdafiə edib, coğrafiya elmləri namizədi alimlik dərəcəsi adı almışam.

1987-2002-cı illərdə Azərbaycan Respublikası EA-nın Cografiya İnstitunda İqlimşünaslıq şöbəsində işləmişəm. Işlədiyim müddət ərzində aqroiqlimşünas kimi kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi və baş elmi işçi vəzifələrində fəaliyyət göstərmişəm.

2002-2004-cü illərdə Azərbaycan Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitunda aparıcı elmi işçi vəzifəsində işləmişəm.

2004-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi coğrafiya və Təbii resurslardan istifadə" kafedrasında baş müəllim, 2010-cu ildə ictimai əsaslarla "Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı" kafedrasının müdür müavini, 2014-cü ildə isə həmin kafedranın dosenti vəzifəsinə seçilmişəm, hal-hazırda 2022-ci ildən "İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasında dosent vəzifəsində işləyirəm.

Ailəliyəm iki övladım var.

## Академические звания / должности

Associate Professor, Azerbaijan State University of Economics (UNEC), İqtisadiyyat Və İdarəetmə Fakültəsi, İctimai İdarəetmə Və Sosial İnnovasiyalar Kafedrası, 2005 - Continues

## Метрики

Публикация: 1